AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Kollegiyasının Qərarı* |
| Qəbul edildiyi tarix | *17.12.2013* |
| Qeydiyyat nömrəsi | *10* |
| Adı | *“Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2011-ci il 30 dekabr tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən baxılan inzibati xətaların törədilməsinə görə inzibati tənbehlərin tətbiqi haqqında Qaydalar”da dəyişiklik edilməsi barədə* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *25.12.2013* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *420.010.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201312170010* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *24.12.2013* |

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnamə”nin 10.4-cü yarımbəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 14 may tarixli 651-IVQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 3 iyun tarixli 2926 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin kollegiyası

**QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2011-ci il 30 dekabr tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən baxılan inzibati xətaların törədilməsinə görə inzibati tənbehlərin tətbiqi haqqında Qaydalar”ın 6.4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

“6.4. Barəsində inzibati cərimə növündə tənbeh tətbiq edilən fiziki şəxs işləmirsə və ya inzibati cərimənin ödənilməsi onun əmək haqqından və ya digər gəlirlərindən mümkün deyildirsə, eləcə də hüquqi şəxsin banklarda və digər kredit təşkilatlarında hesabları barədə məlumat və ya hüquqi şəxsin hesabında pul vəsaiti olmadıqda, yaxud cərimə könüllü qaydada ödənilmədikdə inzibati cərimə tətbiqetmə haqqında qərar müvafiq qanunla nəzərdə tutulmuş qaydada məcburi icraya yönəldilir.”.

2. Hüquq və kadrlar şöbəsinə (B.Məmmədov) tapşırılsın ki, bu qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

3. Hüquq və kadrlar şöbəsinə (B.Məmmədov), Dövlət müəssisələrinin fəaliyyətinin əlaqələndirmə şöbəsinə (M.İsmayılov), Tənzimləmə şöbəsinə (Ə.Təmirov) və İnformasiya cəmiyyətinin inkişafı şöbəsinə (İ.Əliyev) tapşırılsın ki, bu qərardan irəli gələn məsələlərin həll olunmasını təmin etsinlər.

4. Ümumi şöbəyə (İ.Tağıyev) tapşırılsın ki, bu qərarın Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Aparatının struktur bölmələrinə və tabeliyindəki qurumlara göndərilməsini təmin etsin.

5. Bu qərarın icrasına nəzarət Aparatın rəhbəri V.Zeynalova, ümumi nəzarət isə Ümumi şöbənin müdiri İ.Tağıyevə həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Nazir** **Əli Abbasov**